# Zahid Xəlil: Dünyanın ədəbiyyat biliciləri Nizami Gəncəvi yaradıcılığı ilə tanış olduqca onun dahiliyini bir daha etiraf edirlər



**Müsahibimiz yazıçı-şair, filologiya elmləri doktoru, professor Zahid Xəlildir:**

**- Zahid müəllim, Prezident İlham Əliyevin müvafiq Sərəncamına əsasən 2021-ci il ölkəmizdə "Nizami Gəncəvi İli" elan olunub. Bu Sərəncamın əhəmiyyətini necə dəyərləndirirsiniz?**

- İlk olaraq belə bir Sərəncam imzaladığı üçün cənab Prezidentimizə öz dərin minnətdarlığımı bildirirəm. 2020-ci ildə möhtəşəm qələbə qazanan Azərbaycan dövləti mədəniyyət sahəsində də öz qədimliyini, gözəl, əvəzsiz söz sənətkarlarına malik olduğunu bütün dünyaya nümayiş etdirməlidir. Qeyd etmək istəyirəm ki, Nizami Gəncəvi dünyada bənzəri olmayan bir klassikdir. Dünyanın ədəbiyyat biliciləri Nizami Gəncəvi yaradıcılığı ilə tanış olduqca onun böyüklüyünü, dahiliyini bir daha etiraf edirlər. Dahi şairimizin 880 illik yubileyində dövlətimizin böyük Nizami Gəncəviyə verdiyi dəyəri olduqca yüksək qiymətləndirirəm. Ümumiyyətlə, möhtərəm Prezidentimiz milli mədəniyyətimizə, ədəbiyyatımıza, incəsənətimizə diqqət və qayğısını əsirgəmir. Qeyd edim ki, bu ənənə Ulu Öndərimiz Heydər Əliyevdən gəlir. Hələ Sovet dövründə Ulu Öndər Heydər Əliyev klassiklərimizin yubileylərinin yüksək səviyyədə keçirilməsi ilə bağlı qərarlar verməklə milli ədəbiyyatımızın, mədəniyyətimizin geniş miqyasda tanınmasını təmin edirdi. Bu yolu Prezident İlham Əliyev çox yüksək səviyyədə davam etdirir.

Yeri gəlmişkən, bir məqamı xatırlatmaq istəyirəm. Bir dəfə Ulu Öndər Heydər Əliyevin Mərdəkanda yazıçılarla görüşü keçirilirdi. Mən də həmin görüşdə iştirak edirdim. Heydər Əliyev həmin toplantıda dörd saat Nizami Gəncəvi haqqında danışdı və nitqi o qədər əhatəli idi ki, bu dörd saatın necə gəlib keçdiyini heç birimiz hiss etmədik. Əslində, Ulu Öndərin fikirləri Nizami Gəncəvi irsinin araşdırmaçısı olan insanlara yeni istiqamətlər və tapşırıqlar idi.

> *"Nizami Gəncəvinin əsərlərində xalqımızın fəlsəfi fikri, milli sosiologiyamız, psixologiyamız öz əksini tapıb. Bu mənada, Nizami Gəncəvinin əsərləri bütün yaş qrupları, o cümlədən uşaqlar üçün aktualdır"*

**- 2021-ci ilin "Nizami Gəncəvi İli" elan edilməsi həm də gənc nəsil üçün bu ədəbi irslə daha yaxından tanış olmaq imkanı yaradır. Sizcə, bu amil gənclərin mənəvi inkişafında hansı rolu oynayacaq?**

- Bu gün biz Nizami Gəncəvini dünya ədəbiyyatının böyük siması, klassiki hesab edirik və bu həqiqətən də, belədir. Təbii ki, həm də Nizami Gəncəvini yetişdirən Azərbaycan xalqı var. Nizami Gəncəvi zəngin mənəvi dəyərlərə malik olan bir xalqın mədəniyyəti üzərində yetişib. Nizami Gəncəvini, Məhəmməd Füzulini, İmadəddin Nəsimini yetişdirən xalqın mənəvi zənginliyi isə ölçüyəgəlməzdir. Mən Nizami Gəncəvinin "İsgəndərnamə" əsərini nəsrə çevirmişəm və bir daha şahidi oldum ki, o, çox qeyri-adidir, çox nəhəngdir. Bəzən Nizaminin bir beytində böyük bir poema yatır. Nizamini dərk etmək üçün mütləq onu oxumaq lazımdır. Təəssüf ki, müasir dövrdə kitab oxuyanların sayının azalması klassik ədəbiyyata da marağı azaldıb deyə bilərik. Amma məhz bu ildən istifadə edib Nizami kimi klassiki tanıtdırmaqla yanaşı, həm də onun ədəbi-bədii irsini ən əsası gənc nəslə geniş çatdırmalıyıq.

**- Müsahibələrinizin birində qeyd etmisiniz ki, Nizami Gəncəvi həm də böyük uşaq şairidir. Bu qənaətə necə gəldiniz?**

- Nizami Gəncəvinin əsərlərində xalqımızın fəlsəfi fikri, milli sosiologiyamız, psixologiyamız öz əksini tapıb. Bu mənada, Nizami Gəncəvinin əsərləri bütün yaş qrupları, o cümlədən uşaqlar üçün aktualdır. Məsələn, onun ən populyar əsərlərindən olan "Fitnə" əsəri istər uşaqların mənəvi-psixoloji inkişafında, istər gənc nəslin tərbiyəsində, istərsə də böyüklər üçün ibrətamizliyinə görə olduqca dəyərlidir. Belə süjetlər, belə əsərlər "Yeddi gözəl"lə yanaşı, digər poemalarda da öz əksini tapır.

> *"Nizami Gəncəvi dünyada bənzəri olmayan bir klassikdir"*

**- Qeyd etdiyiniz kimi, bu gün kitab oxunması əvvəlki dövrlərə nisbətən qənaətbəxş deyil. Ölkəmizdə klassiklərin yubileylərinin dövlət səviyyəsində keçirilməsi, onların yaradıcılığı ilə bağlı geniş təbliğat işlərinin aparılması həm də gənclərin yenidən kitaba marağının artmasına hansı təsiri göstərə bilər?**

> *"Nizami Gəncəvi zəngin mənəvi dəyərlərə malik olan bir xalqın mədəniyyəti üzərində yetişib"*

- Cəmiyyətin inkişaf prosesinə bir sıra amillər təsir göstərir. Bu gün dünyanın "kiçilməsi" prosesi gedir. Əvvəlki dövrlərdə bizim üçün Avropa nə qədər uzaq idisə, bu gün artıq Avropaya getmək, gəlmək olduqca asanlaşıb. Təbii ki, gənclərimiz milli ədəbiyyatımız, milli fəlsəfi fikirlərimizlə yanaşı, Avropanın bizə verdiyi töhfələrlə də qidalanır. Amma biz Nizami Gəncəvinin əsərlərinin gənc nəslin arasında təbliğini qura bilsək, çox şeyə nail olarıq. Cənab Prezidentimiz bir dəfə çıxışında qeyd etdi ki, bizim tərbiyəmiz milli ənənələrə söykənməlidir. Bu, çox dəyərli və vacib bir məqamdır. Biz öz gələcəyimizin tərbiyəsində milli ənənələrə söykənməliyik. Milli ənənələrimizin ən bariz nümunələrindən biri isə Nizami Gəncəvi ədəbi irsidir. Bu irsin araşdırılması, tanıdılması vətənpərvər gələcəyimizin yetişməsinə də öz töhfəsini verəcək.

**PƏRVİZ**

Yeni Azərbaycan.- 2021.- 12 yanvar.- S.4.